# Azərbaycan Qızıl Aypara Cəmiyyəti (AzQAC)

və

# Azərbaycan Respublikası
# Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik (ANAMA)

arasında

# Mina/MPQ hadisələri və qurbanları, eləcə də minadan zərər çəkmiş şəxslərin ehtiyacları haqqında məlumatların toplanması üzrə

# Razılaşma

## Ümümi məlumat

Azərbaycanda Minalar və müharibənin partlayıcı qalıqları (MPQ) problemi Dağlıq Qarabağ münaqişəsinin birbaşa nəticəsidir. 2002-2003-cü illərdə Minaların Təsirinin öyrənilməsi üzrə tədqiqat 643 icmada 514,000 nəfər əhalinin mina/MPQ-dən zərər çəkdiyini aşkara çıxardı. Mina Qurbanlarının Ehtiyaclarının Qiymətləndirilməsi üzrə 2004-cü ildə ANAMA tərəfindən aparılmış tədqiqata görə mina/MPQ hadisəsindən sağ çıxmış 1883 nəfər üzrə qəza hadisələri barədə məlumat ardıcıl olaraq toplanmış və ANAMA tərəfindən idarə olunan Mina təhlükəsilə mübarizə üzrə Məlumat İdarəetmə Sisteminin (İMSMA) məlumat bazasına daxil edilmişdir. Mina təhlükəsilə mübarizə fəaliyyətinin planlaşdırılması üçün hadisələr və zərərçəkənlər haqqında məlumatın sistematik toplanması və təhlil edilməsi vacibdir. Mina təhlükəsinə dair maarifləndirmə və mina təhlükəsinin azaldılması üzrə məqsədyönlü fəaliyyət hadisələr haqqında məlumatların təhlilinə əsaslanır. Yerli Komitələrinin təşəkkül tapmış strukturu sayəsində AzQAC mina/MPQ hadisələri üzrə məlumatın toplanılmasına cəlb olunmaq və zərər çəkmiş icmaları ANAMA ilə əlaqələndirmək kimi fəaliyyət göstərmək baxımından üstün mövqededir. Mina/MPQ təhlükəsinin azadılması üzrə ANAMA-nın səylərində iştirak etmək üçün 2005-ci ildən etibarən AzQAC Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK)köməyi ilə mina təhlükəsilə mübarizə potensialı yaratmağa başlamışdır.

***Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik -*** 18 iyul 1998-ji ildə Prezidentin Sərəncamı ilə yaradılmışdır və müharibədən zərər çəkmiş ərazilərin Yenidən Qurulması və Bərpası üzrə Dövlət Komissiyasının yanında fəaliyyət göstərir. ANAMA Azərbaycanda mina təhlükəsilə mübarizə ilə bağlı bütün fəaliyyətin milli planlaşdırılması, əlaqələndirilməsi, prioritetlərin müəyyənləşdirilməsi, təlim, standartlar və keyfiyyətin idarə olunması və ehtiyatların səfərbər edilməsi üçün cavabdehdir. İcraedici bir agentlik olaraq onun missiyası: «Yerüstü minaların və partlayıcı qurğuların doğurduğu təhlükəni aradan qaldırmaq üçün ANAMA Azərbaycanda mina təhlükəsilə mübarizə üzrə təhlükəsiz, səmərəli və təsirli milli proqram irəli sürəcək, planlaşdıracaq və həyata keçirəcək» kimi ifadə olunur.

***Azərbaycan Qızıl Aypara Cəmiyyəti-*** 1920-ci ildə I-IV Cenevrə Konvesiyalarına, onlara Əlavə Protokollara və Beynəlxalq Qızıl Xaç / Qızıl Aypara Hərəkatının Nizamnamələri əsasında yaradılmışdır. 2007-ci ilin may ayında Milli Məclis tərəfindən təsdiq olunmuş Qızıl Aypara haqqında Qanuna əsasən AzQAC Azərbaycanda hakimiyyət orqanları tərəfindən tanınmış milli, bitərəf, qərəzsiz təşkilatdır.

AzQAC-ın missiyası ən zavallı insanların çəkdiyi əziyyətləri yüngülləşdirməkdir və o özünün humanitar ehtiyaclarının ödənilməsi üzrə fəaliyyətini Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Fundamental Prinsiplərinə müvafiq surətdə həyata keçirir.

## Razılaşmanın şərtləri

***Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik və Azərbaycan Qızıl Aypara Jəmiyyəti*** bu Razılaşmanı Azərbaycanın mina/MPQ təsirinə məruz qalmış əhalisinə yardım göstərilməsini bir-biri ilə əlaqələndirmək və bir-birinə kömək etmək məqsədilə bağlayırlar.

ANAMA öz mandatına uyğun olaraq Azərbaycan Respublikasında mina təhlükəsilə mübarizə fəaliyyətinə görə bütün məsuliyyəti daşıdığı halda, tanınmış humanitar fəaliyyət iştirakçısı kimi AzQAC da mina/MPQ-lərin insanlara təsirini azaltmaq əzmindədir. AzQAC müstəqilliyini qoruyub saxlayaraq və Beynəlxalq QX/QA Hərəkatının Fundamental Prinsiplərini daim rəhbər tutaraq əldə etdiyi bilikləri və bacarıqları təqdim edəcək və özünün Yerli Komitələrinin xüsusi milli şəbəkəsi vasitəsilə Mina Təhlükəsilə Mübarizə üzrə Milli Strateji Plana uyğun surətdə mina/MPQ hadisələri və zərərçəkənlər, sağ qalmış şəxslərin ehtiyacları barədə məlumat toplayacaq.

### A - Vəzifələr və öhdəliklər

### *1) Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik*

Lazımi təlimlərin keçirilməsini, əməliyyatların əlaqələndirilməsini, idarəetmə və rəhbərliyi təmin etməklə ANAMA Azərbaycanda mina təhlükəsilə mübarizə üzrə müvafiq işlərin yerinə yetirilməsində AzQAC-a kömək edəcək.

ANAMA mina/MPQ hadisələri və qurbanları haqqında Agentliyin idarə etdiyi İMSMA Məlumat bazası formaları üzrə məlumat toplanmasına cəlb olunmuş AzQAC-ın Yerli Komitələr şəbəkəsinə təsdiq edilmiş və maliyyələşdirilən layihə(lər) çərçivəsində təlimlər keçirəcək.

ANAMA AzQAC-ı mina/MPQ hadisələri və qurbanları, eləcə də sağ qalmış şəxslərin ehtiyacları haqqında məlumat toplamaq üçün İMSMA formaları ilə təmin edəcək.

ANAMA mina/MPQ hadisələri haqqında AzQAC-ın məsul Yerli Komitələri tərəfindən toplanmış, AzQAC-ın Baş Qərargahında cəmlənmiş, keyfiyyəti və etibarlığı yoxlanmış məlumatlarını İMSMA məlumat bazasına daxil edəcək.

AzQAC-ın sifarişləri əsasında ANAMA mina/MPQ hadisələri və qurbanları, eləcə də sağ qalmış şəxslərin ehtiyaclarına dair məlumatdan mina/MPQ-dən zərər çəkmiş ərazilərdə əməliyyatların planlaşdırılması və humanitar fəaliyyətin həyata keçirilməsi üçün istifadə olunmasına imkan yaradacaq.

Eyni zamanda ANAMA AzQAC-ın bu Razılaşmada nəzərdə tutulmuş fəaliyyət növlərini həyata keçirmək üçün vəsait cəlb etmək səylərini müdafiə edəcək və buna dəstək olacaq.

## *2) Azərbaycan Qızıl Aypara Cəmiyyəti*

AzQAC operativ akkreditasiya* üçün ANAMA-ya müraciət təqdim edəcək və Mina Təhlükəsi ilə mübarizə üzrə Milli Standartlara əməl edəcək. AzQAC Standartları özünün məsul Yerli Komitələri və Baş Qərargahının humanitar fəaliyyətlə məşğul olan heyəti arasında yayacaq.

AzQAC mina/MPQ hadisələri və qurbanları haqqında məlumatın toplanmasının uzun müddət vacib olacağını etiraf edir və bu istiqamətdə fəaliyyətin davamlı olması üçün vəsait cəlb edilməsinə lazımi diqqət yetirəcək.

AzQAC İMSMA formaları üzrə toplanmış, keyfiyyəti və etibarlığı yoxlanmış bütün məlümatı öz Baş Qərargahı vasitəsilə hər ay birbaşa ANAMA-ya ötürəcək.

Toplanmış məlumatların İMSMA məlumat bazasına daxil edilməsinin mümkünlüyünü təmin etmək üçün AzQAC mina/MPQ hadisələri və qurbanları haqqında məlumatları ANAMA-nın təlimatlarına və meyarlarına uyğun surətdə toplayacaq, təzələyəcək, cəmləyəcək və ötürəcək.

## B – Əlaqələndirmə mexanizmi

Hər iki tərəfdaş arasında əlaqələndirmə görüşləri iki ayda bir dəfə Bakı şəhərində keçirilir ki, burada işlərin nəticələri haqqında hesabat verilir, gələcək planlar müzakirəyə çıxarılır və meydana çıxmış problemlərin həllinin tapılması üçün konstruktiv müzakirə edilir.

Hər əlaqələndirmə görüşündən sonra protokol təsdiq olunur ki, burada birgə qəbul edilmiş qərarlar öz əksini tapır. Protokol görüş tarixindən 5 gündən gec olmayaraq hazırlanır, hər iki tərəfdən imzalanır və bundan sonra paylanır.

## C - Xaricə hesabat

Donorlar və ya hakimiyyət orqanları üçün ANAMA və ya AzQAC tərəfindən hazırlanmış hesabatlar ANAMA-nın Prinsiplərinə və Beynəlxalq Qızıl Xaç / Qızıl Aypara Hərəkatının Fundamental Prinsiplərinə, onların insanlara xidmət etmək və inkişafa təkan vermək məqsədinə uyğun olmalıdır.

Əgər ANAMA və ya AzQAC tərəfindən hazırlanmış hesabata başqa təşkilatın nüfuzunu potensial olaraq təhlükə altına ala biləcək məlumat daxildirsə, sənəd nəşr olunmazdan öncə onun qaralamasının bir surəti nəzərdən keçirilmək üçün başqa tərəfə təqdim olunmalıdır.

Həm ANAMA, həm AzQAC donorların cəlb olunmasına yönəlmiş fəaliyyət hesabatlarında, reklam sənədlərində və digər nəşrlərdə mina/MPQ hadisələri və qurbanları haqqında məlumat toplanması ilə əlaqədər işlərinə görə yad ediləcək.

---

***Operativ akkreditasiya** – bu Razılaşmada nəzərdə tutulmuş fəaliyyət növlərini səmərəli və təsirli surətdə həyata keçirmək üçün təşkilatın səriştəsi olduğunun rəsmi tanınması prosedurasıdır.

## D – Razılaşmaya xitam verilməsi

Razılaşma hər iki tərəfdən imzalandığı gündən sonra bir il ərzində qüvvədə olur. Bu müddət başa çatdıqdan sonra, Razılaşma bir daha nəzərdən keçiriləcək və onun yenidən imzalanması və ya ona xitam verilməsi barədə qərar veriləcək.

İki təşkilatdan hər hansı birinin fikrincə bu Razılaşmanın şərtlərindən hansısa əməl olunmursa, Razılaşmaya xitam verilə bilər.

Bu Razılaşmaya xitam vermək istəyi əvvəlcədən yazılı formada hazırlanır və dərhal qüvvəyə minir.

Bu razılaşma Azərbaycan dilində iki orijinal nüsxədən və ingilis dilində iki orijinal nüsxədən ibarətdir. Hər iki dildə olan orijinal nüsxələr autentikdir.

Razılaşmanın surətləri hüquqi qüvvəyə malik deyil.

Razılaşma dörd səhifədən ibarətdir.

Tarix: 18 Dekabr 2007

**ANAMA adından**

**Cənab Nazim İsmayılov**
**Direktor**

**AzQAC adından**

**Cənab Novruz Aslanov**
**Prezident**